**COP29 – Ədalət Mühiti Təşəbbüsü**

*Bakı şəhəri, 20 fevral 2024*

Bilindiyi kimi, BMT-nin qlobal İqlim Dəyişikliyi Konfransının (COP29 – Tərəflərin Konfransı) 29-cu sesiyası 2024-cü ilin noyabrında Azərbaycanında keçiriləcək. Əvvəlki illərin təcrübəsini nəzərə alaraq qeyd edək ki, təxminən iki həftə sürəcək konfransda on minlərlə xarici qonağın iştirakı gözlənilir. Eləcə də qonaqlar arasında Qərb ölkələri də olmaqla onlarla dünya lideri, yüksək ranqlı siyasətçilər, beynəlxalq təşkilatların rəhbərləri, media və QHT təmsilçilərinin olması mümkündür.

COP29 Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdikdən sonra ölkə ərazisində keçirilən ilk qlobal konfrans və ümilikdə müstəqillik dövründə ev sahibliyi ediləcək ən böyük beynəlxalq tədbir olacaq. Bu baxımdan COP29-un Azərbaycanda keçirilməsi ətraf mühit məsələləri ilə yanaşı, siyasi və iqtisadi baxımından ölkə üçün böyük əhəmiyyət daşıyır.

Bununla belə, COP29 kimi möhtəşəm bir qlobal tədbirə ev sahibliyi edəcək Azərbaycanda aşağıdakı problemlər yaşanmaqdadır:

1. Azərbaycan üzun illərdir ki, siyasi və vətəndaş azadlıqları baxımından Avropanın ən problemli ölkələrindən biridir. Xüsusilə də son 15 il ərzində siyasətçilərin, jurnalistlərin və ictimai fəalların saxta ittihamlarla həbs olunması adi hal alıb.
2. Bu müddət ərzində Azərbaycan Konstitusiyasına, informasiya əldə etmək və QHT-lərin fəaliyyətini təmin edən qanunlara reqressiv dəyişiklər olunub, Avropa Şurası Venesiya Komissiyasının mənfi rəylərinə baxmayaraq medianın və siyasi partiyaların fəaliyyətini məhdudlaşdıran yeni qanunlar qəbul edilib.
3. Beynəlxalq Şəffaqlıq təşkilatının 2021-ci il Korrupsiya Qavrama İndeksinə əsasən Azərbaycan 100 baldan 30 bal toplayıb və nəzərdən keçirilən 168 ölkə arasında 128-ci yeri tutub. 2022-ci ildə isə Azərbaycan 180 ölkə arasında 157-ci yerə düşüb və 100 baldan 23 bal toplayıb. 2023-cü ildə ölkənin balı olduğu kimi qaldı.
4. Qadınlara qarşı gender əsaslı zorakılıq və məişət zorakılığı ölkədə özünü kəskin biruzə verən problemlər sırasındadır. Hökumət bu sahədə beynəlxalq formatlarda iştirakdan irəli gələn pozitiv öhdəliklərini kifayət qədər yaxşı icra etmir və aparılan mübarizə lazımi qədər səmərəli deyil.
5. Koronavirus pandemiyası başlanan dövrdə 2020-ci ilin martında Azərbaycanın quru sərhədləri vətəndaşların gediş-gəlişi üçün bağlanıb və icazə sistemi tətbiq olunub. Pandemiya nəzarətə götürüldükdən sonra başqa ölkələr quru səhdələri açdığı halda Azərbaycan hökumətin əksinə 2022-ci ilin iyunundan etibarən yenə də koronavirus adı ilə quru sərhəddi vətəndaşların gediş-gəlişinə və xarici vətəndaşların isə gəlişinə tam bağlayıb və iki ildir ki, bu vəziyyət davam edir.
6. Azərbaycan Paris İqlim Razılaşması çərçivəsində 2030-cuilədək istilikxana qaz emissiyasını (GHG) 1990-cı illə müqayisədə 35% azaltmağı öhdəlik götürüb. Əslində isə bu 1990-cı illərdə sənaye müəssisələrinin kütləvi bağlanması nəticəsində artıq əldə olunmuş nəticədir. Paris İqlim Razılaşmasına qoşulandan sonra hökumət GHG emissiyalarının monitorinqi və azaldılması istiqamətində sistemli siyasət yürütməmiş, əksinə son illərdə iqlim emissiyalarının artması davam

etmiş, neft hasılatı nəticəsində Abşeron yarımadası başda olmaqla böyük ərazilər və su hövzələri neftlə çirklənmişdir.

7. İqlim böhranı ilə əlaqədar kəskinləşən su qıtlığı su resurslarının ədlaətsiz bölüşdürülməsi, icmaların və kiçik fermerlərin su resurslarına çıxışının oliqarx sahibkarların xeyrinə məhdudlaşdırılması, suvarılan əkin sahələrinin ekspanonsional genişlənməsi və səmərəsiz infrastruktur idarəetməsi nəticəsində daha da artmışdır.

Bütün bunları nəzərə alaraq, adları çəkilən QHT-lər COP29 tədbirinə ölkədəki vətəndaş azadlıqlarının, ictimai iştirakçılığın təmin olunması və ətraf mühitdə ədalətin bərqərar olunması imkanı kimi baxır, COP29 - Ədalət Mühiti Təşəbbüsünü (COP29 - Cimate of Justice Initiative) təsis edir  və aşağıdakı məsələlərin həlli üçün imkanlarını birləşdirərək analitik, vəkillik və əməkdaşlıq tədbirlərini həyata keçirməyi qərara alır:

A. Siyasi motivlərlə həbs edilmiş jurnalistlər, ictimai və siyasi fəalların azad edilməsi;
B. Vətəndaş Cəmiyyətinin sərbəst fəalliyyətinin və ictimai iştirakçılığın təmin edilməsi üçün QHT-lər və Qrant haqqında qanunlarda dəyişiklərin edilməsi;
C. Korrupsiya ilə bağlı mövcud vəziyyətin qiymətləndirilməsini, ölçülə bilən fəalliyətləri, həyata keçirilmə müddəti və büdcəsini nəzərdə Korrupsiyaya qarşı Mübarizə Fəaliyyət Planının Milli Məclis səviyyəsində vətəndaş cəmiyyətinin iştirakçılığı ilə qəbul edilməsi. Fəaliyyətlərin həyata keçirilməsini qiymətləndirmək üçün hesabatlıq sistemlərinin yaradılması;
D. Qadınlara qarşı zorakılığı önləmək üçün İstanbul Konvensiyasını ratifikasiyası;
E. Ölkənin quru sərhədlərindən vətəndaşların sərbəst gediş-gəlişinin təmin edilməsi;
F. Paris İqlim Razılaşması üzrə 2030-cu il üçün daha ambisiyalı öhdəliklərin götürülməsi və yol xəritəsinin hazırlanması;
G. 2030-cu ilə qədər neftlə çirklənmiş ərazilərin təmizlənməsi istiqamətində fəaliyyət planının hazırlanıb həyata keçirilməsi;
H. 2030-cu ilə qədər su resurslarından ədalətli və səmərəli istifadə istiqamətində nəzərəçarpacaq irəliləyiş əldə edilməsini hədəfləyən strategiyanın və fəaliyyət planının açıqlanması.

*İmzalar:*

Azad İqtisadiyyata Yardım ictimai birliyi - Zöhrab İsmayıl

EcoFront - Cavid Qara

Qadınların Gücləndirilməsi Mərkəzi - Vəfa Rüstəm

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi - Anar Məmmədli

Vətəndaş Hüquqları İnstitutu - Bəşir Süleymanlı